STİMULLAŞDIRICI LOTEREYANIN KEÇİRİLMƏ QAYDALARI
**«YENİ İLDƏN DAHA ÇOX ƏLDƏ ET!»**

## 1. LOTEREYANIN TƏŞKİLATÇISI

1.1. Lotereyanın təşkilatçısı «**Yeni İldən Daha Çox Əldə Et!**» (bundan sonra – Lotereya), Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 1105-T13-3906 altında qeydiyyata alınmış, hüquqi ünvanı Azərbaycan Respublikası, Bakı şəhəri, Tbilisi prospekti 3166, VÖİN nömrəsi 1300732511) olan, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən 30 dekabr 2005-ci il tarixində verilən 001512 saylı Lisenziyaya əsasən Respublika ərazisində GSM/UMTS standartlı telekomunikasiya xidmətləri göstərən, ticarət nişanı Nar Mobile olan (Nar Mobile) üçüncü mobil operator «Azerfon» Məhdud Məsuliyyətli Cəmiyyətidir (bundan sonra – Təşkilatçı).

1.2. Lotereya 6 dekabr 2008-ci il tarixindən 31 yanvar 2009-cu il tarixinə qədər keçiriləcək o cümlədən (bundan sonra – Lotereyanın keçirilmə müddəti).

1.3. Lotereyanın forması – Təşkilatçının mobil rabitə xidmətlərinin satılması məqsədilə Təşkilatçının abunəçiləri üçün tirajlı stimullaşdırıcı lotereya.

1.4. Lotereya bileti (daşıyıcı, ona bərabər olan) Qeydiyyat kodu və SİM kartın abunəçinin mobil telefon nömrəsi ilə birləşməsidir (kombinasiyasıdır).

1.5. Lotereya Azərbaycan Respublikasının bütün ərazisində keçirilir.

## 2. LOTEREYADA İŞTİRAK

2.1 Nar Mobile Rəngarəng Zövqlər-Rejim1/2, Məqsədə Doğru, Xoş Xəbər, Həvəskar, Nar Mobile Məkanı, Tələbə tarif planı abunəçiləri olan, bu qaydaların 2.2 bəndində göstərilənlər istisna olmaqla bütün fiziki şəxslər, Azərbaycan Respublikasının vətəndaşları və onun ərazisində yaşayan rezidentlər Lotereyanın iştirakçıları ola bilərlər.

2.2 Aşağıdakı şəxslər Lotereyanın iştirakçısı sayılmır və iştirak etmək hüququna malik deyildir:

- Lotereyanın Təşkilatçısının əməkdaşları və onları ailə üzləri (həyat yoldaşı, övladları, qardaş/bacıları, valideynləri);
- Müqavilə üzrə Təşkilatçının Başlanğıc Paketlərinin satışını həyata keçirən Distributor və Agentlərin şirkətlərinin sahibləri və yaxud nümayəndələri və onların ailə üzvləri (həyat yoldaşı, övladları, qardaş/bacıları, valideynləri);
- Lotereyanın keçirilməsi ilə əlaqədar olan və yaxud Lotereyanın keçirilməsinə cəlb olunan reklam agentliklərinin nümayəndələrinin və ya partnyorlarının sahibləri və ya əməkdaşları, və onların ailə üzvləri (ər/arvad, övladları, qardaş/bacıları, valideynləri);Lotereyanın Qaliblərinin müəyyən edilməsi üzrə komissiyanın üzvləri və onların ailə üzvləri (ər/arvad, övladları, qardaş/bacıları, valideynləri);
- Tam və məhdud mülki hüquq fəaliyyət qabiliyyətli şəxslərin Lotereyada iştirakı ilə bağlı məhdudiyyət Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə tənzimlənir.

## 3. LOTEREYADA İŞTİRAK ŞƏRTLƏRİ

3.1. Lotereyada iştirak etmək üçün aşağıdakıların olması zəruridir:

3.1.1. Nar Mobile abunəçisi olmaq.

3.1.2.Lotereyada iştirakın qeydiyyata alınması üçün İstək göndərmək.

3.1.3. İstək –hazırkı xidmətlər paketi Qaydalarına uyğun olaraq 30 (şəbəkə daxili) dəqiqə danışıq vaxtının və ya 30 SMS (şəbəkə daxili) -mesajının (hansı ki, abunəçinin bonus hesabına daxil ediləcək) təqdim edilməsi və ya lotereyada iştirak ilə bağlı xidmətlərin sifarişinə dair abunəçinin ödənişli sorğusu. Abunəçinin əsas hesabı manatla hesablanır. Abunəçinin balansında

olan məbləğ 1 AZN – dən az olduğu halda abunəçi sorğu göndərə bilməyəcək və bununla da Lotereyada iştirak etmək üçün qeydiyyatdan keçməsi mümkün olmayacaq.

3.1.4. Sorğu yollamaq üsulları:

- 737 qısa nömrəsinə SMS-mesaj göndərmək vasitəsilə
- sorğunu birbaşa mobil telefonun ekranında yığmaqla
- Nar Mobile «İnternet Bələdçisi» vasitəsilə
- Nar Mobile Menyu Bələdçisi – abunəçinin SIM-kartına daxil edilmiş xüsusi əlavə vasitəsilə:

3.1.5. Lotereyada iştirak etmək üçün qeydiyyat 6 dekabr 2008-ci il 00-00-dan 31 yanvar 2009-cu il 23:59:59 qədər mümkündür. Əgər İştirakçı Lotereya başlayana qədər və ya qurtardıqdan sonra Əmr göndərirsə Lotereyada iştirak qeydə alınmır və bu barədə ona Təşkilatçı tərəfindən müvafiq mətnli SMS-bildirişi göndəriləcək.

3.1.6. Göndərilmə üsulundan asılı olmayaraq 1 sorğunun dəyəri ƏDV daxil olmaqla 1 AZN təşkil edir.

3.1.7. Mövcud qaydaların 3.1.5 bəndində müəyyən edilmiş müddət ərzində Sorğu göndərildildiyi və həmin sorğunun Təşkilatçı tərəfindən qəbul edildiyi halda:

1) İştirakçının nömrəsi qeydə alınır;
2) Sorğuya qeydiyyat nömrəsi müəyyən olunur;
3) Sorğunu göndərən abunəçinin nömrəsinə bildiriş mesajı vasitəsi ilə onun Lotereyada iştirak etmək üçün qeydiyyatdan keçməsini təsdiq edən Qeydiyyat kodu göndərilir.

3.1.8. Lotereyanın İştirakçısı qeyri-məhdud sayda Sorğu göndərə bilər və bu sorğuların hər birinə unikal Qeydiyyat kodu veriləcək.

3.1.9. Hər bir İştirakçı öz Qeydiyyat kodu üzrə Lotereyanın Prizlərini (Uduşlarını) qazanmaq üçün bərabər imkanlara malikdir.

3.1.10. Lotereyanın İştirakçısı hazırkı Qaydaların bütün şərtlərini yerinə yetirən şəxs sayılacaq.

**4 UDUŞ FONDU**

4.1 Lotereyanın İştirakçıları aşağıdakı UDUŞLARI əldə etmək imkanına malikdirlər:

Mükafat – Honda CR-V markalı avtomobil.

Xüsusi mükafat – 50 000 (əlli min) AZN.

4.2 Ümumi uduş fondu:

4.2.1. Honda CR-V markalı 8 avtomobil;

4.2.2. 100 000 (yüz manat) AZN.

4.3 Uduş Fondu yuxarıda göstərilən Mükafatların sayı və nomenklaturası ilə məhdudlaşır.

4.4 Mükafatlar yalnız mövucd Qaydaların şərtlərinə əsasən Lotereyanın İştirakçıları tərəfindən əldə oluna bilər.

4.5 Mükafatların xarici görkəmi (rəng, ölçü), texniki xarakteristikaları Təşkilatçıların qərarı ilə müəyyən olunur və Lotereyanın reklam materiallarındakı təsvirdən fərqlənə bilər.

## 5 UDUŞ FONDUNUN OYNANILMASI - MÜKAFAT QAZANMAQ HÜQUQU ƏLDƏ EDƏCƏK AKSİYA İŞTİRAKÇILARININ MÜƏYYƏN EDİLMƏSİ

5.1 Uduş fondunun oynanılması – mükafat qazanmaq hüququ əldə edəcək Lotereya İştirakçılarının müəyyən edilməsi (bundan sonra – Lotereyanın Qaliblərinin müəyyən edilməsi) mövcud Qaydalara uyğun olaraq və aşağıda göstərilən təlimatlar nəzərə alınmaqla həyata keçirilir.

5.2 Honda CR-V markalı 8 avtomobil - Mükafatları qazanacaq Lotereya Qaliblərinin müəyyən edilməsi 14 dekabr 2008-ci il tarixindən başlayaraq 1 fevral 2009-cu il tarixinə qədər hər həftə hazırkı Qaydaların 5.3 bəndinə uyğun olaraq müvafiq dövr ərzində qeydə alınmış bütün Qeydiyyat kodları arasından təsadüfi seçim vasitəsilə İştirakçıların Qeydiyyat kodları üzrə həyata keçirilir.

5.3 Honda CR-V markalı 8 avtomobil - Mükafatları qazanacaq Lotereya Qaliblərinin müəyyən edilməsi aşağıda göstərilən tarixlərdə həyata keçirilir:

- 14 dekabr 2008-ci il ( 6-13 dekabr 2008-ci il tarixlərində qeydə alınmış İştirakçılar arasında),
- 21 dekabr 2008-ci il (2008-ci il 6 - 20 dekabr tarixlərində qeydə alınmış İştirakçılar arasında),
- 28 dekabr 2008-ci il (2008-ci il 6 - 27 dekabr tarixlərində qeydə alınmış İştirakçılar arasında),
- 4 yanvar 2009-cu il (6 dekabr 2008-ci il tarixindən - 3 yanvar 2009-cu il tarixinədək qeydə alınmış İştirakçılar arasında),
- 11 yanvar 2009-cu il (6 dekabr 2008-ci il tarixindən - 10 yanvar 2009-cu il tarixlərində qeydə alınmış İştirakçılar arasında),
- 18 yanvar 2009-cu il (6 dekabr 2008-ci il tarixindən - 17 yanvar 2009-cu il tarixlərində qeydə alınmış İştirakçılar arasında),
- 25 yanvar 2009-cu il (6 dekabr 2008-ci il tarixindən - 24 yanvar 2009-cu il tarixlərində qeydə alınmış İştirakçılar arasında)
- 1 fevral 2009-cu il (6 dekabr 2008-ci il tarixindən - 31 yanvar tarixinə qədər qeydə alınmış İştirakçılar arasında).

5.4 Xüsusi Mükafat almaq hüququnu əldə edəcək Lotereya Qaliblərinin müəyyən edilməsi:

- 50 000 (əlli min) AZN 4 yanvar 2009-cu il tarixində 6 dekabr 2008-ci il tarixindən - 3 yanvar 2009-cu il tarixinədək qeydə alınmış İştirakçıların arasından müəyyən ediləcək.
- 50 000 (əlli min) AZN 1 fevral 2009-cu il tarixində 6 dekabr 2008-ci il tarixindən - 31 yanvar 2009-cu il tarixinədək qeydə alınmış İştirakçılar arasından müəyyən ediləcək.

5.5 Mükafat/Xüsusi Mükafat almaq hüququnu əldə edəcək Lotereya Qaliblərinin müəyyən edilməsi Qeydiyyat kodlarına əsasən təsadüfi seçim yolu ilə bütün iştirakçılar arasında həyata keçirilir. Mükafat/Xüsusi Mükafat qazanmış İştirakçılar siyahıdan çıxarılır və növbəti uduşların oynanılmasında iştirak etmirlər.

5.6 Qaliblərin müəyyən edilməsi tərkibinə 5 nəfərin daxil olduğu tiraj komissiyasının iştirakı ilə həyata keçirilir.

5.7 Lotereya Qaliblərinə Lotereya Qaliblərinin müəyyən edildiyi tarixdən etibarən 7 gün ərzində SMS-mesajları göndəriləcək və onlar həmin bu müddət ərzində qeydiyyatın həyata keçirildiyi telefon nömrəsi üzrə məlumatlandırılacaqlar.

5.8 Lotereyanın Qalibləri olmayan İştirakçılar Mükafat/Xüsusi mükafat əldə etmək hüququna malik olmurlar.

5.9 Yığılmış bonus danışıq dəqiqələrindən və SMS-mesajlarından istifadə müddəti – 28 fevral 2009-cu il tarixinə qədərdir. 1 mart 2009-cu il tarixinə yığılmış danışıq dəqiqələri və SMS-mesajları sayğacı sıfıra bərabər edilir.

## 6 MÜKAFATLARIN/XÜSUSİ MÜKAFATIN ALINMASI QAYDASI VƏ ŞƏRTLƏRİ

6.1 Mükafatların/Xüsusi Mükafatın təqdim edilməsi Təşkilatçının Bakı şəhəri, T.Əliyev 25, ünvanında yerləşən ofisində həyata keçirilir. Təşkilatçı Qaliblərin müəyyən edildiyi tarixdən 7 gündən gec olmayaraq qeydiyyatın edildiyi telefon nömrəsi üzrə Qaliblərə həvəsləndirici mükafatların verilməsi yerinə və vaxtına dair bildiriş göndərir Təşkilatçı Qalibə onun nömrəsi söndürülmüş olduğu və ya əhatə dairəsi xaricində olduğu halda, İştirakçının cavab vermədiyi, eləcə də qarşısı alınmaz (fors major) hallar baş verdiyi halda bildirişin çatdırılmasının mümkünsüzlüyünə görə heç bir məsuliyyət daşımır. İştirakçı Mükafat/Xüsusi Mükafatı almaq üçün Təşkilatçı tərəfindən müəyyən edilmiş vaxtda ofisə gəlməyə borcludur.

6.2 Lotereyanın Qalibi seçilən Lotereya İştirakçısı Mükafat/Xüsusi Mükafatı almaq üçün Təşkilatçıya Təşkilatçı ilə qüvvədə olan Abunə Müqaviləsini, şəxsiyyətini təsdiq edən sənəd və ya abunə müqaviləsi bağlayarkən təqdim etdiyi sənədin əsli və qeydiyyatın həyata keçirildiyi və Təşkilatçı tərəfindən Lotereya İştirakçısının Qeydiyyat nömrəsi ilə SMS-mesajlarının göndərildiyi abunəçinin mobil telefon nömrəsinin SİM-kartını –lotereya biletini təqdim etməyə borcludur.

6.3 Lotereyanın İştirakçısı tərəfindən 6.2-ci bəndinə uyğun olaraq şərtlər yerinə yetirə bilinmədiyi və ya təqdim edilmiş sənədlərdə uyğunsuzluqlar aşkar edildiyi halda həmin İştirakçı Lotereyanın Qalibi hesab oluna bilməz və Mükafat/Xüsusi Mükafat ona təqdim oluna bilməz.

6.4 Əgər İştirakçı Təşkilatçıya Təşkilatçı ilə qüvvədə olan abunə müqaviləsini, şəxsiyyətini təsdiq edən sənəd və ya abunə müqaviləsi bağlayarkən təqdim etdiyi sənədin əsli və qeydiyyatın həyata keçirildiyi abunəçinin mobil telefon nömrəsinin SİM-kartını təqdim edərsə, Lotereya İştirakçısının Qeydiyyat nömrəsi ilə Təşkilatçı tərəfindən göndərilən SMS-mesajını təqdim edə bilmədiyi halda Təşkilatçının uçot sisteminin məlumatları əsasında İştirakçı üçün Qeydiyyat nömrəsi bərpa oluna bilər və mükafat verilə bilər.

6.5 İştirakçı Təşkilatçıya Təşkilatçı ilə qüvvədə olan abunə müqaviləsini, abunə müqaviləsini, şəxsiyyətini təsdiq edən sənəd və ya abunə müqaviləsi bağlayarkən təqdim etdiyi sənədin əslini təqdim edərsə, lakin Təşkilatçı tərəfindən Lotereya İştirakçısının Qeydiyyat nömrəsi əks etdirən SMS-mesajlarının göndərildiyi mobil telefon nömrəsinin SİM-kartını – lotereya biletini təqdim edə bilmirsə Mükafat/Xüsusi Mükafat Lotereyanın İştirakçısına verilə bilməz.

6.6 Mükafat/Xüsusi Mükafatın dəyərinin pul ekvivalenti verilmir.

6.7 Hüquq-mühafizə və digər hökumət orqanlarında avtomobilin qeydiyyatı yalnız İştirakçılar tərəfindən öz şəxsi hesabına və onun adından həyata keçirlir.

6.8 Təşkilatçı vergi və yığımların Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq ödənilməsinə görə öhdəliyi öz üzərinə götürür.

6.9 İştirakçı Mükafat/Xüsusi Mükafatı almaq üçün Lotereyanın bitdiyi andan etibarən 90 gün ərzində Təşkilatçıya müraciət etməyə borcludur. Bu müddətdən sonra İştirakçıların Mükafat/Xüsusi Mükafatın alınması üçün Təşkilatçıya müraciəti qəbul edilməyəcək.

6.10 İştirakıda lazımi sənədlərin olmaması ilə əlaqədar, və eləcə də Lotereya İştirakçısının olmaması nəticəsində, Lotereya İştirakçına Lotereya bitdikdən sonra 15 iş günü ərzində bildiriş göndərmək mümkün olmadıqda, və ya İştirakçı Lotereya bitdikdən sonra 90 iş gün ərzində Mükafat/Xüsusi Mükafatın alınması üçün Təşkilatçıya müraciət etmədiyi halda Təşkilatçı İştirakçının Mükafat/Xüsusi Mükafatdan istifadə etməsinin mümkünsüzlüyünə görə heç bir məsuliyyət daşımır.

## 7 MƏHDUDİYYƏT

7.1 Lotereyada iştirak edən İştirakçı öz iştirakı ilə Nar Mobile abunəçisi - fiziki şəxs, Azərbaycan Respublikasının vətəndaşı və ya onun ərazisində yaşayan rezident olduğunu təsdiq edir.

7.2 Mükafatın/Xüsusi Mükafatın alınması zamanı Lotereyada iştirak etmiş həmin şəxs hazırkı Qaydaların 2.2.-ci bəndinə uyğun olaraq İştirakçı ola bilməməsi müəyyən edildiyi və 6.3, 6.5 bəndlərinin tələblərinə cavab vermədiyi halda İştirakçı Lotereyaların qaydalarına əsasən Mükafatı/Xüsusi Mükafatı almaq hüququnu itirir. Belə Mükafatlar/Xüsusi Mükafat Təşkilatçı tərəfindən yenidən oynanıla bilər.

7.3 Təşkilatçının məsuliyyəti Mükafatların/Xüsusi Mükafatın hazırkı qaydalarda müəyyən edilmiş dəyəri və sayı çərçivəsindən kənara çıxmır.

## 8 MƏLUMATIN TƏQDİM EDİLMƏSİ

8.1 İştirakçı Lotereyada iştirak etməklə öz Adının və Familiyasının, ixtisası və iş yeri barədə məlumatların Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində nəzərdə tutulan (o cümlədən, üçüncü şəxslərə ötürülməsi vasitəsilə) hər hansı üsullarla marketinq məqsədləri üçün istifadə edilməsinə öz razılığını təsdiq edir.

8.2 İştirakçı göstərilən məlumatların, foto şəkillərin, müsahibələrin, digər materialların kütləvi informasiya vasitələrində, hər hansı çap, audio-video materiallarında pulsuz olaraq istifadə edilməsinə öz razılığını təsdiq edir.

8.3 İştirakçı Lotereyanın Təşkilatçısı tərəfindən göndərilən məlumatların, SMS-mesajların, reklam xarakterli digər mesajların qəbul edilməsinə öz razılığını təsdiq edir.

## 9 LOTEREYANIN ŞƏRTLƏRİ BARƏDƏ MƏLUMATLANDIRMA QAYDASI VƏ ÜSULU

9.1 Lotereyanın Qaliblərinin müəyyən edilməsinin nəticələri barədə məlumat kütləvi informasiya vasitələrində (KİV) və www.narmobile.az İnternet saytında dərc ediləcək.

9.2 Lotereyanın Qaydaları barədə məlumatlandırma Lotereya barədə elan verilməsi və www.narmobile.az İnternet saytında Lotereyanın Qaydalarına dair qısaldılmış məlumatın yerləşdirilməsi və yayımlanan reklam materiallarında Lotereyanın mexanikası barədə qısaldılmış məlumatın yerləşdirilməsi vasitəsilə həyata keçirilir.

9.3 Əlavə məlumat üçün Lotereyanın keçirildiyi müddət ərzində 777, 7775 (Nar Mobile mobil telefon nömrələrindən pulsuz olaraq) Qaynar Xətt nömrələrinə və ya +994124440777 şəhər nömrəsinə zəng etməklə müraciət etmək olar.

## 10 DİGƏR ŞƏRTLƏR

10.1 Lotereyada iştirak etməklə Lotereyanın İştirakçısı mövcud Qaydalarla tanış olub onlarla tam razılaşması faktını təsdiq etmiş olur və bu Qaydaları yerinə yetirmək öhdəliyini üzərinə götürür.

10.2 Lotereyanın İştirakçı tərəfindən mövcud Qaydaların pozulması, və ya İştirakçı tərəfindən hazırkı Qaydaların yerinə yetirilməsindən imtina (o cümlədən Lotereyanın keçirilməsi və/və ya Mükafatların/Xüsusi mükafatların əldə olunması mexanikası, qaydası və müddəti ərzində) İştirakçı tərəfindən Lotereyada iştirakdan imtina kimi hesab ediləcək.